

Qədir Tərtərli

## SƏNİN AD GÜNÜNƏ

*(Əziz qardaşım Yasif Nəsirlinin ad gününə)*

Sənin ad gününə gələ bilmədim,
Bağışla, bu mənim qəbahətimdi.
Amma bilirəm ki, xoş arzularım,
Gül-çiçək ətirli məhəbbətimdi.

Səpilsin ömrünə qoy çiçək-çiçək,
Ömrün gül-çiçəkli gülüstan olsun.
Kişilik ömrünü yaşamısan sən,
Qoy bu söz dillərdə bir dastan olsun.

Asan keçməyibdi ötən illərin,
Şahidi olmusan boranın, qarın.
Amma dağlar kimi əyilməz olub,
Hünərin, iradən, əzmin, vüqarın.

Haqqı misra-misra yazdın ömrünə,
Ədalət dilində bir şüar oldu.
Pislikdən, pislərdən qaçdın həmişə,
Həqiqi dostların yaxşılar oldu.

Çoxları anlayıb, duymayıb səni,
Əyriyə düz yolu göstərdiyindən.
Heç kəsə bənzərin yoxdur əzizim,
Elə buna görə sən olmusan, sən!

Xeyirxah işindən pay ummamısan,
Bunu dərk etməyib hər nankor, naşı.
Quru bir sözü də əsirgəyiblər,
Sənin təmənnasız haqqına qarşı.

Saymaqla qurtarmaz yaxşılıqların,
Bunları yazmaqda acizdir qələm.
Neyləyim, ayrı şey gəlmir əlimdən
Axırda məcburam bircə söz deyəm:

Budur mənim arzum, əziz qardaşım,
Taleyin həmişə sənə yar olsun!
Səninlə birlikdə qoy əzizlərin,
Xoşbəxt ömür sürüb bəxtiyar olsun!

## ADAMLAR CÜRBƏCÜRDÜ

Adamlar cürbəcürdü,
Yaxşısı var,pisi var.
Şərbət tək içməlisi,
Nankoru, naqisi var.

Adam var ki, çəkisi
Öz sözü, öz səsi var.
Adam da var, nə izi,
Nədə ki, kölgəsi var.

Adam var - el adamı,
El and içər başına.
Adam da var çalışar,
Zəhər qatsın aşına.

Adam var adı, sanı
Özündən çox böyükdü.
Adam da var çəkisi
Ancaq torpağa yükdü.

Baş açmırsan nə üçün
Adam adı qoşadır?
Görən yaramazları
Allah niyə yaşadır?

## ÜZÜ DÖNSÜN AYRILIĞIN

*(Oğlum Yalçının əziz xatirəsinə)*

Üzü dönsün ayrılığın,
Səni məndən ayrı saldı.
Haqq yanında mən kiməm ki?
Verən verdi, alan aldı.

Özün getdin, xatirimdə
Əbədilik qaldı adın.
Nə yaxşı ki, dərdlərini
Özün ilə aparmadın.

İndi onlar səndən mənə
Bir ömürlük yadigardı.
Mən onlarla yaşayıram,
Onlar mənə havadardı

## BAŞQADI

Deyəsən bu dünya o dünya deyil,
Əyri də başqadı, düz də başqadı.
Gözlərin deydiyin baxışlar demir,
Baxış da başqadı, göz də başqadı.

İndiki ocaqlar odunsuz yanır,
Bilmirsən boylanan hara boylanır.
Söz verən sözünü unudur, danır,
Əməl də başqadı, söz də başqadı.

Yaşanan bu ömür ömür deyil ki,
Hər dəmir deyilən, dəmir deyil ki,
Ocaqda közərmir, kömür deyil ki,
Kömür də başqadı, köz də başqadı.

Atlar unudubdu ta üzəngini,
Qaradan seçmirsən ağın rəngini,
Təbiət dəyişib öz ahəngini,
Payız da başqadı, yaz da başqadı.

## YARAŞMAZ

Layla çalıb anan sənə bu dildə,
Bu saf dilə özgə yamaq yaraşmaz.
Yad sözlərdən calaq vurma ona sən,
Calaq tutmaz, ona calaq yaraşmaz.

Görən hardan almış idi bu dili?
Zümzüməsi susdurardı bülbülü.
Hər bağçanın öz gülü var, öz gülü,
Dayaqsıza çör-çöp dayaq yaraşmaz.

Gül bağında bülbül ötər, gül açar,
Gözəlliklər üzə gülər, dil açar.
Məftun könül gözəlliyə yol açar,
Gül bağına kor yapalaq yaraşmaz.

Günlər ötər, vaxt havayı dolanmaz,
Su tökməklə arxın suyu sulanmaz.
Bulaq suyu daşdan sızar, bulanmaz,
Şor sulara buzlu bulaq yaraşmaz.

## DEYİRLƏR

Əzəldən kasıbın bəxti gətirmir,
Düz olan işinə çaş-baş deyirlər.
Bədbəxtin yediyi yavan çörəyə,
Gah plov deyirlər, gah aş deyirlər.

Bilmirsən səbəbi nədi, nədəndi,
Geydiyi paltarlar sanki kəfəndi.
Varlıya deyirlər yeyib içəndi,
Kasıbın adına alkaş deyirlər.

Yüz ölçüb bir biçər işi görəndə,
Azmaz düz yolunu dumanda, çəndə.
Təhqirə dözməyib cavab verəndə,
Davakar deyirlər, dikbaş deyirlər.

Adı hallanmayıb bir qeyli-qalda,
Gözü olmayıbdı dövlətdə, malda.
Alimə dərs deyər ağıl-kamalla,
Di gəl ki, adına kütbaş deyirlər.

## DAĞLAR

Deyin hara köçüb getdi,
Xoş çağımız hanı dağlar?
Niyə döndü növrağınız,
Növrağınız hanı dağlar?

Qartal uçmur zirvənizdə,
Qəribsəyib zirvəniz də.
Tab qoymayıb bu dərd sizdə,
Düşmənini tanı dağlar.

Günlər keçər, aylar ötər,
Vaxt gözləmir, ömür bitər.
Görən nə vaxt sona yetər,
Bu həsrətin sonu dağlır?

## NİYƏ BELƏYİK GÖRƏN

Təpəyə dağ deyirik,
Ayrana yağ deyirik.
Ağa qara söyləyib,
Qaraya ağ deyirik.
Baş aça bilmirəm mən,
Niyə beləyik görən?

Yersiz coşub daşarıq,
Bu minvalla yaşarıq.
Lazım gəlsə, hər kəsə,
Yüz şəvədə qoşarıq.
Baş aça bilmirəm mən,
Niyə beləyik görən?

Döşümüzə döyərik,
Özümüzü öyərik.
Dostun çörəyin yeyib,
Arxasınca söyərik.
Baş aça bilmirəm mən,
Niyə beləyik görən?

Od yox ikən yanırıq,
Həqiqəti danarıq.
Utanan üz varmı ki,
Söyləyək utanırıq.
Baş aça bilmirəm mən
Niyə beləyik görən?

## RÜŞVƏT

Adını hörmətlə dəyişdirsə də,
Elə rüşvətdi ki, rüşvətdi, rüşvət.
Ölünü dirildib sağlam eləyər.
Xəstəyə məlhəmdi, şəfqətdi rüşvət.

Dil verib dilbilməz lalı dindirər,
Göylərdən günəşi yerə endirər.
Çolağı, şikəsti ata mindirər,
Gücsüzə güc verən qüvvətdi rüşvət.

Dincdi,nə qan bilər, nə qada bilər,
Qazanı ocaqsız qaynada bilər.
Dağı da yerindən oynada bilər,
Qüdrətdən yaranmış qüdrətdi rüşvət.

Yaxşıya pis deyib söyənlər azmı?
Haqsıza haqlısan deyənlər azmı?
Dünyanı təriflə yeyənlər azmı?
Kişiyə "şərəfdi", "şöhrətdi" rüşvət.

Başda duranlara yarınanlara,
Təriflə boynuna sarınanlara,
Əgər bacarırsa, barınanlara,
Yaxşı mal-dövlətdi, sərvətdi rüşvət.

## QALIBDI

İtirdik çəhlimi, itirdik izi,
Əlac tək ümidsiz izdə qalıbdı.
Biz nə istəyirdik, axır nə tapdıq,
Arzular puç olub, gözdə qalıbdı.

Çiçəkmi gəzirsən boranda, qarda,
Əlvan çiçəklərin qaldı baharda.
Təmizlik hardadı, doğruluq harda,
Təmizlik, doğruluq sözdə qalıbdı.

Bu şumu vaxtında əkənlər əkib,
İşin yaxşı görüb, arxını çəkib.
Qaymaqlar qazanın dibinə çöküb,
Südün üzsüz yeri üzdə qalıbdı.

Gəl o yad naxışı xalıya vurma,
Bu bəndi, bərəni vurub uçurma.
Ay Qədir, nahaqdan özünü yorma,
Sözün düzün deyən, düzdə qalıbdı.

ədalət 2019.- 1 avqust.- S.8.